**A.X.ƏYYUBOVA**
*müəllim*
*e-mail: aytan.mammadova@khazar.org*
**:https://orcid.org/0009-0001-1827-1226**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.484**

# DİL FAKÜLTƏLƏRİNİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNDƏ MOTİVASİYANIN YARADILMASI YOLLARI

***Xülasə.*** *Məqalədə motivasiyanın ingilis dilinin tədrisində böyük rola malik olduğundan bəhs edilir. Bu amil təhsilalanların təlim nəticələrini dəstəkləyir. Burada əsas məsələ olaraq, dilöyrənənlərin öyrənmə prosesindən, təhsilverənlərin isə təhsilalanlardan gözləntiləri diqqət mərkəzində durur.*
*Bir sözlə, burada motivasiya öyrənmə prosesi üçün vacib hesab edilir.*
*Nəticə etibarilə, təlim metodlarında bu termin əsas məsələlərdəndir.*
*Onu da vurğulayaq ki, eyni zamanda səriştəəsaslı təhsilin prinsiplərinin aplikasiyası kimi qəbul edilməkdədir. Burada əsasən dəqiqlik, cavabdehlik, idarəçilik, kəmiyyət meyarları əsas götürülür. Sözügedən tədrisdə təhsilalanların motivasiya səviyyələri, davranış məsələləri xüsusi əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *ünsiyyət, motivasiya, dil, kontekst, bilik*

İngilis dilinin tədrisində motivasiya fonunda kommunikativ fəaliyyətlərin rolu danılmazdır. Bu zaman bacarıqların inkişafında və inteqrasiyada yüksələn xətt müşahidə edilərək davam edir.

Ümumilikdə, motivasiya ilə bağlı bir çox məsələlər onu əlçatan edir.

Xüsusilə, son dövrlər İKT-nin bütün sahələrə inteqrasiyası kommunikativ fəaliyyətlərin müxtəlif növlərindən istifadəni əlçatan etmişdir ki, bu da motivasiyanın artırılmasını dəstəkləməkdədir.

Onu da xüsusi olaraq, qeyd etmək lazımdır ki, kommunikativ dil təliminin fəal şəkildə istifadə edildiyi motivasiyaedici mühitin formalaşdırıldığı auditoriyalarda adını qeyd etdiyimiz fəaliyyətlərin yeri inkar edilməzdir.

Onlardan bəzilərini aşağıda təqdim edirik:

- rollu oyunlar silsiləsi
- müsahibələr
- qrup işləri
- informasiya mübadilələri
- fikir mübadilələri
- scavenger hunt [5].

Ümumilikdə, motivasiyaedici mühitin formalaşdırılmasında kommunikativ fəaliyyətlərin rolu danılmazdır. Burada vacib məqamlardan biri odur ki, bu cür fəaliyyətlər situasiyada və ya kontekstdə təqdim olunmalı, konkret kommunikativ məqsədlərə xidmət etməlidirlər.

Tipik olaraq, bunlara aşağıdakılar aiddir:

- oyunlar
- problem həllinə yönəldilmiş tapşırıqlar
- rollu oyunlar.

Bu zaman həmçinin informasiya mübadiləsi, seçimlər, fidbək olmalıdır.

Yeri gəlmişkən, qeyd edək ki, metodoloji ədəbiyyatlarda dörd fundamental ünsiyyət fəaliyyətinin tipləri qeyd edilir.

Onları təqdim edirik.

1. Verbal
2. Qeyri-verbal
3. Yazılı
4. Vizual.

Verbal kommunikasiya fikir mübadiləsi olub, gündəlik həyatımızda vacib faktorlardan sayılır [7].

Ümumiyyətlə, xarici dillərin tədrisində bir çox kommunikativ fəaliyyət növlərinin adlarını qeyd etmək olar ki, onlar da bilavasitə uğurlu və mədəni ünsiyyətin gerçəkləşdirilməsinə, ən əsası da motivasiyanın yüksəldilməsinə nəzərə çarpacaq dərəcədə yardım edirlər.

Onlardan bəzilərini təqdim edirik.

Məsələn, *hər şəkil bir hekayə nəql edir* adlı kommunikativ fəaliyyət növü məhz bu baxımdan maraqlıdır . Burada təhsilalanlar şəklə öz baxış bucağından baxaraq, müxtəlif fikirlər formalaşdıraraq, onları daha sonra öz yoldaşları ilə bölüşə bilərlər. Bu zaman onlar arasında əməkdaşlığın səviyyəsi yüksəlir, interaksiya reallaşdırılır.

*Mən telefonla fikir mübadiləsi edirəm* adlı fəaliyyət növü də öyrənmədə faydalılıq baxımından diqqət çəkir [4].

Onu da xüsusilə vurğulamaq lazımdır ki, telefon simulyasiyaları faydalı və autentik təcrübə baxımından dilöyrənənlər üçün əla motivasiyaedici fürsətlər təklif edir. Belə ki, telefon zəngləri bu cür söhbətlərə qoşulmaqda asan və əlçatanlığı ilə seçilir. Bu zaman əsas məsələ söhbətin məcrasına düşməkdir. Bu halda danışığın məzmunu hər iki tərəf üçün nikbin motivlərə köklənmiş, aydın və anlaşıqlı olmalıdır. Belə olduqda söhbət hər iki tərəf üçün maraqlı və səmərəli təşkil olunur.

*Bu münasibətlə metodist F.Kərimov öz kitabında diqqəti kommunikativ fəaliyyətlər fonunda formalaşdırılan motivasiyanın üzərinə çəkərək hər dəfə eyni metod və üsulla, iş forması ilə işləməyin yaxşı nəticə vermədiyini qeyd edir.*

*Bundan əlavə, metodist qeyd edir ki, hər dəfə eyni iş forması seçdikdə bu zaman dilöyrənənlərin dərsə, fənnə, keçirilən tədbirlərə, kommunikativ fəaliyyətlərə maraqları nəzərəçarpacaq dərəcədə azalır. Ona görə də bu işlərin təşkilində və aparılmasında müxtəlif və maraqlı, rəngarəng metod və iş formalarından istifadə etmək məqsədəuyğundur. Belə ki, üsulların qarşıya qoyulan məqsədə uyğun olaraq seçilməsi, onların şifahi nitq bacarıqlarının formalaşdırılmasına istiqamətləndirilməsi sözügedən işlərin təşkilində mühüm əhəmiyyətə malikdir [1, s. 45].*

Məhz bu baxımdan məsələyə yanaşdıqda aydın olur ki, kommunikativ fəaliyyətlərin müxtəlif növlərinin həyata keçirilməsi təkcə ünsiyyəti gerçəkləşdirmir, eyni zamanda aşağıdakıları özündə ehtiva edir:

- motivasiya
- dostluq
- əməkdaşlıq
- interaktivlik
- sosiallaşma
- fəallıq
- diskursiv bilik və s.

Bütün bunlar nikbin motivlər olaraq əsas keyfiyyətlərin formalaşdırılmasında mühüm vasitə kimi çıxış edir.

Bundan əlavə, kommunikativ fəaliyyətlər fonunda problem əsaslı öyrənmə layihələri tələbələrə ideyalar üzərində düşünmək, fikir irəli sürmək, öz gələcək planlarını təklif etmək imkanları təqdim edir. Bu zaman onlar müstəqil şəkildə işləməklə, konseptuallaşdırmaq, dizayn

etmək, öz innovativ axtarışlarını qrup yoldaşları və üzvlər qarşısında nümayiş etdirmək arzusunda olurlar [3, s. 45].

Hesab edirik ki, bu cür situasiyalarda aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Onları nəzərə çatdırırıq:

- oyunların təşkili
- tələbələrə seçim imkanlarının verilməsi
- müasir texnologiyalardan istifadəni reallaşdırmaq
- dərslərdə maksimum interaktivliyi təmin etmək
- materialları həqiqi həyati situasiyalara uyğunlaşdırmaq [6].

İngilis dilində motivasiya məsələlərindən bəhs edərkən ilk diqqət çəkənlərdən ən əsası motivasiyaedici kommunikativyönümlü çalışmalar sistemindən istifadənin nəzərdə tutulmasıdır.

*Metodist Ə.Səfiyev yazır: "Onu da nəzərə almaq lazımdır ki, dil və nitq strukturlarının və onların ifadə vasitələrinin heç də həmişə üst-üstə düşməməsi faktı əlavə linqvistik və metodiki çətinliklərin yaranmasına səbəb olur.*

*Tədris edilən xarici dilin leksik və qrammatik quruluşunda linqvistik ünsiyyət prosesində istifadə edilməsi prizmasından yanaşan tədqiqatçılar xarici dildə monoloji nitqin aşılanmasına dair məqsədyönlü, xüsusi iş aparmağın zəruriliyini qeyd edirlər"[2, s.99].*

Hesab edirik ki, bu zaman təhsilverənlər dilöyrənənlərin motivasiya səviyyələrinin aşağı düşməməsinə çalışmalıdırlar. Burada isə ünsiyyətdə olmaq, mənimsənilən dili öyrətmək, müxtəlif janrda mətnləri tərcümə etmək, xülasə yazmaq bacarığı nəzərdə tutulur.

Əsasən motivasiya dedikdə üç anlayış diqqət mərkəzində saxlanılır ki, onlar da aşağıdakıları dəstəkləyir:

1. Yaradıcılıq
2. Əməkdaşlıq
3. Ünsiyyət

Yaradıcılıq dedikdə buraya əsasən yaradıcı düşüncəni aid edirlər.

Yaradıcı düşüncə isə özü-özlüyündə aşağıdakıları özündə ehtiva etməkdədir:

- yaradıcılıq
- təsəvvür
- problem həlli

İkinci isə əməkdaşlıqdır. Bu silsiləyə isə aşağıda qeyd etdiklərimizi şamil edə bilərik:

- emosional zəka
- komanda işi
- adaptasiya

Üçüncü isə ünsiyyətdir. Buraya isə aid olanları aşağıdakı kimi təqdim edirik:

- ifadə tərzi
- dil
- empatiya

Müəllimlərin tədris prosesində yerinə yetirdikləri əhəmiyyətli rol hamıya məlumdur. Bu baxımdan aşağıdakı tədris, təlim səriştələri motivasiya fonunda həyata keçirilir.

- ünsiyyət və şəxsiyyətlərarası qabiliyyətlər
- təşkil və planlaşdırma məsələləri
- auditoriyanın idarə olunması
- fasilitasiya və dərsə həvəsləndirmə
- qiymətləndirmə və rəhbərlik
- əməkdaşlıq və komanda işi
- qayğı və inklüzivlik
- çeviklik və adaptasiya.

Müasir ədəbiyyatlarda bacarıq və vərdişlərin motivasiya fonunda inkişaf etdirilməsi maraq doğurur ki, onlardan biri də dinləmədir. Dinləmənin motivasiya fonunda 5 mərhələsi olması haqqında fikirlər vardır ki, onları aşağıdakı formada təsnifləndirirlər:

1. Qəbul etmə
2. Anlama
3. Qiymətləndirmə
4. Yadda saxlama
5. Cavablandırma

Ümumiyyətlə, dinləmə bilavasitə kommunikasiyaya aid olduğu üçün onun aşağıdakı pillələrini qeyd edirik.

1. İdeyanın formalaşdırılması
2. Kodlaşdırma
3. Kanal seçimi
4. Dekodlaşdırma
5. Geri dönüş

Deməli, səmərəli şəkildə dinləmə qabiliyyəti ismarıcları hiss etmə və anlamanın dərəcəsindən asılıdır.

Görünən odur ki, dinləmə passiv proses deyildir [9].

Geniş həcmli dinləmə bacarıqlarının həyata keçirilməsində motivasiyaedici bədii kontekstlərin rolu danılmazdır. Belə ki, dilöyrənənlər ucadan oxuyarkən onlarda dinləyib-anlama bacarıqları inkişaf etməyə başlayır.

Qeyd edək ki, onlayn formatda çoxlu ekstensiv dinləmə kitabxanaları mövcuddur.

Dinləmənin bədii mətnlə əlaqəsindən bəhs edərkən burada əsas məqama diqqət etmək lazımdır. Belə ki, əgər istənilən bədii mətn mütəxəssis, daha doğrusu, mükəmməl oxu bacarığı olan şəxs tərəfindən oxunarsa bu zaman dilöyrənənlər müxtəlif dialektlər və ingilis dilinin sahib olduğu səs çalarları ilə tanış ola bilərlər.

Bu pillələr hər biri spesifik funksiya və xüsusiyyətlərlə xarakterizə olunmaqdadır.

İkinci dilin mənimsənilməsi, yəni qeyri-dil daşıyıcılarının birincidən sonra öyrənmə prosesi bir çox vacib açar prinsiplərlə müşayiət olunur ki, onlar aşağıdakılardır:

- mənalı inputa fokuslanma
- interaksiya
- motivasiya
- məqsədyönlü dilöyrənmə zərurəti
- dəstəkləyici öyrənmə mühiti.

Birinci dilin mənimsənilməsində isə iki əsas prinsip qeyd edilir ki, onlar aşağıdakılardır:

- *Nitqi qavrama(speech perception).*
- *nitqi emal etmə(speech production)*

Birinci hər zaman ikinci olana – nitqin emalına yönəldilir. Burada ən başlanğıc mərhələ fonemlərin fərqləndirilməsidir [5].

N.Xomskiyə görə, dilin mənimsənilməsi təkcə xarici faktorlardan, xarici motivasiya elementlərindən asılı deyildir. Bu daha çox anadangəlmə qabiliyyət olub, insan beynində qrammatik kateqoriyaların və sintaktik qaydaların mənimsənilməsini nəzərdə tutur.

Əksinə, Behaviorizm nəzəriyyəsi stimullara fokuslanır. Bu zaman daha çox davranış stimullarının vacibliyi ön plana çəkilir [8].

Onu da xüsusilə nəzərə almaq lazımdır ki, təhsilalanlar öz fikirlərini ifadə edərkən kommunikativ məqsədlərini özləri üçün aydınlaşdırmalı və linqvistik formanı diqqətdə saxlamalıdırlar. Vacib olan budur ki, xarici dil dərslərində mənaya və formaya fokuslanmış təcrübənin kombinasiyasından təşkil olunmuş motivasiyaedici tapşırıqlar yerinə yetirilməlidir. Dilöyrənənlər kommunikativ fəaliyyətlər həyata keçirərkən onlarda bacarıqlar formalaşır, vərdiş inkişaf edir, biliklər möhkəmləndirilir. Belə bir sualla qarşı-qarşıya qalırıq.

Bəs biliyin təhsilverənlərin nəzarəti altında motivasiya şəraitində möhkəmləndirilməsi dedikdə nələri nəzərdə tuturuq?

Möhkəmləndirmə dərsin elə bir mərhələsidir ki, bu zaman dilöyrənənlər bir-birindən suallar soruşmaq, məsələlərə aydınlıq gətirmək imkanları əldə edirlər. Onların dil bilikləri, səriştəlilik səviyyələri yoxlanılır. Bu zaman yoxlanılan biliklər onların dərs müddətində əldə etdikləri elmi məlumatlar əsasında yerinə yetirilir.

Bu kontekstdə məsələyə nəzər saldıqda möhkəmləndirmənin müxtəlif növləri ilə qarşılaşırıq ki, onlar aşağıdakılardır:

– dərsin xülasəsi
– dərsi yekunlaşdırmazdan əvvəl mövzu üzrə sonuncu dəfə sual-cavab
– interaktiv Power Point quizlər
– müxtəlif oyunlar
– çevik cavablandırma sualları

Görünən odur ki, tədris materiallarında seçimlər etmək, nitqdə istifadə edilən leksik vahidlərin işlənmə tezliyi, yararlılıq meyarları, onların dilöyrənənlərin tələbat və ehtiyaclarına uyğun olub-olmaması əsas şərt hesab edilir. Bu zaman yenə də motivasiya amili önə keçir.

Ümumilikdə, bu fonda mənimsəməyə təqdim edilən leksik vahidlərin, qrammatik strukturların, fonetik tapşırıqların və s. hər birinin möhkəmləndirməyə ehtiyacı vardır. Məhz elə buna görə də möhkəmləndirmə təhsilalanların məlumatı necə qavradıqlarından, anladıqlarından əmin olmaq üçün ən mükəmməl vasitə və yoldur. Bu cür yanaşma müəllimlərə dərsin aspektlərini aydınlaşdırmağa, tələbələrin suallarını cavablandırmağa, dərsin məqsədlərini müəyyənləşdirməyə, gələcək dərslərdə istifadə ediləcək metodlarda seçim etmək fürsəti verir.

Metodistlər möhkəmləndirməni qarışıq, çoxtərkibli qruplar üçün əsas vasitə olaraq, dəyərləndirirlər. Bu da təhsilalanlar üçün daha açıq, dəstəkləyici mühit formalaşdırır ki, bu zaman onlar özlərini ünsiyyətə qoşulmaqla daha inamlı hiss edirlər, mövzu ilə bağlı sual-cavab sessiyalarında cəsarətli, fəal olurlar. Belə olduqda, onlara dəstək olmaq, utancaqlıq hissini aradan qaldırmağa yardım etmək, suallar hazırlamaqda həvəsləndirmək, imkanlar yaratmaq məqsədəuyğundur.

Daha dəqiq desək, vacibdir, təxirəsalınmazdır.

Bundan əlavə, motivasiya mühitində öyrənməni möhkəmləndirmənin digər nəzərə çarpan faydaları da vardır ki, onlar aşağıdakılar hesab edilir:

– məlumatın saxlanması
– təhsilalanların özünəinam hissinin formalaşdırılması
– dövri, işlək dərs planlarının tərtibində öyrənmə məqsədlərinin həyata keçirilməsi

Maraqlı suallar ortaya çıxır:

– bacarıqların inkişaf etdirilməsi zamanı motivasiya necə baş verir?

Sualı daha konkret şəkildə qoyaq.

– motivasiya fonunda avtomatlaşdırma nədir?
– avtomatlaşdırmanın biliyin kamil şəkildə mənimsənilməsində rolu nədən ibarətdir?
– bunun üçün hansı addımlar atılmalıdır?
– hansı təlim strategiyaları işə salınmalıdır?

Biliyin, bacarığın avtomatlaşdırılması (Knowledge Automation) Geniş Dil Modellərindən (Large Language Models) istifadənin yeni üsulu olub, zəkanın, bacarığın təşkilatçılığa doğru paylaşdırılmasıdır.

Fikrimizi daha da dəqiqləşdirsək, ikinci dilin tədrisində əsas məqsəd dilöyrənənlərdə öyrənmə prosesində avtomatlaşdırmanı inkişaf etdirməyə, yerinə yetirməyə yardım etmək, bu müstəvidə onlarda motivasiya yaratmaqdır. Bu proses kiçik bir koqnitiv effekt sayəsində reallaşır. Belə ki, bu təkcə öyrənilən dildən səlis şəkildə istifadəni nəzərdə tutmur.

Eyni zamanda biliyin eksplisit formada implisit formaya keçməsi ilə səciyyələnir. Bu zaman dilöyrənənlər müəyyən bacarıqlar formalaşdıraraq, kommunikativ vərdişlərini aktivləşdirməyə və avtomatlaşdırmağa başlayırlar.

Beləliklə, bacarıqlar (danışıq, yazı, oxu, dinləmə) motivasiya fonunda fəal öyrənmə və öyrətmə strategiyaları hesabına möhkəmləndirilir.

Əlbəttə, burada əsas olan müntəzəm olaraq, təcrübənin qazanılmasıdır. Bu məsələdə məhz təcrübə açar rolunu oynamaqdadır.

Nəticə etibarilə, müntəzəm olaraq, oxu, yazı danışıq, dinləmə bacarıqları ilə məşğul olduqda, bunlara dair maraqlı, müasir kommunikativ fəaliyyətlər həyata keçirdikdə qrammatik, leksik, fonetik qaydalar və s. də avtomatlaşır.

Məhz bu kontekstdə interaktiv dil "Apps" və onlayn platformalar öyrənilən dilə dair istifadəçilərə çoxlu çalışma və tapşırıqlar təklif edir ki, burada mütəmadi olaraq, fidbəkin cəld şəkildə ötürülməsi və bu fonda uğurun izlənilməsi təmin edilir.

Buradan belə bir nəticə hasil olunur ki, müəyyən qayda və qanunların təcrübədən keçirilməsi, avtomatlaşdırılması, möhkəmləndirilməsi kommunikativ kompetensiyanın inkişafında mühüm rol oynayır. Hətta qeyd edərdik ki, ən vacib açar element hesab edilir. Əlbəttə, bu zaman fəal strategiyalardan istifadə etmək zərurəti meydana çıxır.

Bu zaman aşağıdakı fəaliyyətlərin reallaşdırılması vacibdir:

- müzakirələrdə iştirak,
- yazılı təcrübi tapşırıqların yerinə yetirilməsi
- oxu materiallarını anlamanı həyata keçirmək
- intensiv və ekstensiv oxu materiallarını fərqləndirmək
- səsli, səssiz oxunu fərqləndirmək
- analitik, səlis oxu meyarlarını müəyyənləşdirmək və s.

Beləliklə, bu bacarıqların inteqrasiyası elə motivasyaedici şəkildə tənzimlənməlidir ki, istənilən situasiyalarda uğurlu kommunikasiyaya nail olmaq mümkün olsun.

***İşin elmi nəticəsi.*** Motivasiya dil tədrisinin istifadəsi fonunda təhsilverənlər və onların seçdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətlərini, səmərəliliyini dəstəkləyir. Burada ən effektiv yollardan biri, hətta bunu ən əsası adlandırmaq olar ki, bu da dilöyrənənləri düzgün istiqamətləndirmək, ingilis dilində danışanları məqsədyönlü şəkildə mənalı söhbətlərə qoşulmaqda motivasiya etməkdir.

***İşin elmi yeniliyi.*** Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər təhlilə cəlb edilir, elmi müddəalara nəzər salınır, əldə edilən nəticələr xülasə şəklində təqdim edilir.

***İşin tətbiqi əhəmiyyəti.*** Araşdırılan mövzu ali məktəblərin aşağı kurslarında ingilis dilinin tədrisində bilik və bacarıqların istifadəsi və təkmilləşdirilməsi baxımından faydalı ola bilər.

**Ədəbiyyat**

**Azərbaycan dilində**

1. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F. Kərimov, – Bakı: BSU nəşr., – 2002, –139s.
2. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev, –Bakı: Elm, –2019, –176 s.

**İngilis dilində**

3. Harmer, J. The Practice of English Language Teaching. 5th edition / J.Harmer, –Pearson Education Limited, –2015, –446 p.
4. Maria Luiza Perez Canado. Competency – based Language Teaching in Higher Education. Springer Science + Business Media Dordrecht, –2013, –p.7-12

**İnternet resursları**

5. https://.wikipedia.org
6. https://colinjames method.com
7. https:// www.thought co.com

8. https:// www.structural learning. com
9. https://www.skills.you need.com

**A.Kh.Ayyubova**

**The Ways of Developing Motivation at Junior Courses at Language Faculties in English**

***Summary***

The article considers that motivation plays great role in Foreign Language Teaching. This approach is based on the outcomes of the learners. The main point here is the expectation of the learners from the learning processing and teachers expectations from the students.

Generally, this approach considers that motivation is very important at learning processing. So, output and competency are the main points for this term. We should emphasize that this term is accepted as the principles of application of Competency Based Education. Accountability, management quantification are main questions in here.

In this method, motivation and the behavioral questions of the students have great importance.

***Keywords:*** *communication, motivation, language, context, knowledge*

**А.Х.Аюбова**

**Пути создания мотивации в английском языке на младших курсах языковых факультетов**

***Резюме***

В статье отмечается, что мотивация играет большую роль в обучении английскому языку. Этот подход основан на результатах обучения учащихся. Здесь в качестве основного вопроса находятся ожидания учащихся от процесса обучения и ожидания преподавателей от учащихся.

Термин «мотивация» предполагает получение результата. Следовательно, результативность и компетентность являются ключевыми вопросами в методе обучения, основанном на компетенциях. Подчеркнем также, что данный метод обучения рассматривается как применение принципов воспитания. Здесь в основном рассматриваются точность, ответственность, управление и количественные критерии.

Особое значении приобретают мотивации и поведенческие вопросы учащихся в указанном виде обучения.

***Ключевые слова:*** *коммуникация, мотивация, язык, контекст, знание*

*Rəyçi: ped.f.d., dos. S.Ə.Hüseynova*

*Redaksiyaya daxil olub: 07.10.2025*